

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 46 (20.947)

*12 mart 2014-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bildirdi ki, Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə yüksək səviyyədə olduğunu bir daha təsdiq edir. Hərbi sahədə əməkdaşlığımızı ikitərəfli münasibətlərimizin inkişafının tərkib hissəsi kimi dəyərləndirən Prezident İlham Əliyev son illər bu istiqamətdə də mühüm nailiyyətlərin əldə olunduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığımızın bu sahədə daha da genişləndirilməsi üçün qarşılıqlı təcrübə mübadiləsinin, birgə təlimlərin keçirilməsinin və birgə istehsal sahələrinin yaradılmasının önəmini qeyd etdi.

Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akar ilk dəfə ölkəmizə 1994-cü ildə səfər etdiyini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük ehtiramla xatırladı. Ötən dövr ərzində Bakıda çox böyük dəyişikliklərin şahidi olduğunu vurğulayan Hulusi Akar ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda yüksək təəssürat yaratdığını dedi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Dünya Bankının Cənubi Qafqaz regionu üzrə direktoru Henri Keralinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 8 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 22-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Daxili Qoşunların bir qrup hərbi qulluqçusu təltif edilmişdir. Təltif olunanlar arasında Daxili Qoşunların Naxçıvan Alayının hərbi qulluqçusu da vardır.

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Əsədov İlkin Sabir oğlu – mayor

## Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsinin inzibati binası istifadəyə verilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Ölkəmizin hərtərəfli inkişafı üçün, Azərbaycan xalqının rifahı, sülh şəraitində yaşaması üçün sabitlik, ictimai-siyasi asayiş qorunmalıdır, təhlükəsizliyimiz təmin olunmalıdır. Bu işdə Milli Təhlükəsizlik Nazirliyinin xüsusi funksiyası var, xüsusi rolu var və Milli Təhlükəsizlik Nazirliyi bu vəzifənin öhdəsindən şərəflə gəlir”.***





Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə milli təhlükəsizlik orqanları sürətli inkişaf və təşkilatlanma yolu keçərək dövlətçilik ənənələrinin qorunması kimi müqəddəs amallar uğrunda aparılan mübarizənin daim ön sıralarında olmuşdur. Son illər Naxçıvan Muxtar Respublikasında da milli təhlükəsizlik orqanları əməkdaşları üçün nümunəvi iş şəraitinin yaradılması və xidmətin keyfiyyətinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.

Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, martın 11-də Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsinin yeni inzibati binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri, general-mayor Vəli Ələsgərov açılış mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Ali Məclisin Sədri zabitləri salamlamışdır.

Sonra açılışı bildirən lent kəsilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsinin yeni inzibati binasının Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılmasının 95 illiyi ərəfəsində istifadəyə verildiyini bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: “Ölkəmizdə müxtəlif sahələr üzrə dövlət strukturları yaradılmış, onların fəaliyyətinin təşkil olunması məqsədilə qanunlar, normativ aktlar və əsasnamələr təsdiq olunmuşdur. Bu cür dövlət qurumlarından biri də Milli Təhlükəsizlik Nazirliyidir”.

Ali Məclisin Sədri demişdir: “Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi 1992-ci ildə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövründə yaradılmışdır. 2004-cü ildə nazirliyin əsasnaməsi və strukturu təsdiq edilmişdir. Bundan sonra Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Bölməsi şöbəyə çevrilmişdir. Yeni əsasnaməyə uyğun olaraq, nazirlik və onun rayon şöbələri qarşısında mühüm vəzifələr müəyyənləşdirilmişdir. Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında milli təhlükəsizliyin təmin edilməsi qarşıda duran başlıca vəzifədir”.

Qeyd olunmuşdur ki, bu gün əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin təşkili, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqatların aparılması, rayonda energetika, nəqliyyat, rabitə və iqtisadiyyatın digər strateji əhəmiyyətli sahələrinin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin görülməsi, dövlət orqanlarında dövlət sirrinin mühafizəsi, qaçaqmalçılığa, narkotik vasitələrin, psixotrop, partlayıcı maddələrin və qurğuların, mədəni, tarixi və arxeoloji sərvət olan əşyaların qanunsuz dövriyyəsinə qarşı mübarizə və qanunvericiliyə uyğun olaraq digər tədbirlərin həyata keçirilməsi Ordubad Rayon Şöbəsinin qarşısında duran əsas vəzifələrdir. Yaradılan müasir iş şəraiti rayon ərazisində milli təhlükəsizliyin təminatına və qarşıya qoyulan bu vəzifələrin uğurlu icrasına imkan verəcəkdir. Ona görə də kollektiv dövlətimizin yaratdığı şəraitdən səmərəli istifadə etməli, öz işlərini qanunvericiliyin tələblərinə uyğun qurmalıdır.

Ali Məclisin Sədri demişdir: “Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təşkilini daim diqqət mərkəzində saxlamış, bu sahənin inkişafına hərtərəfli qayğı göstərmişdir. Bu gün ulu öndərin müəyyənləşdirdiyi bu yolun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə milli təhlükəsizlik təmin olunmuş, sabitlik yaradılmışdır”.

Ali Məclisin Sədri kollektivə qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulamış, binada yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, 3 mərtəbədən ibarət olan bina müasir standartlar səviyyəsindədir. Otaqlar lazımi avadanlıqlar və texniki vasitələrlə təmin olunmuşdur. İdman zalında şöbənin əməkdaşlarının fiziki hazırlığının artırılması üçün hər cür şərait yaradılmış, müasir idman avadanlıqları qoyulmuşdur. İkinci mərtəbədə isə 4 xidməti yaşayış mənzili istifadəyə verilmişdir.

Binada müasir istilik və işıqlandırma sistemləri quraşdırılmış, həyətdə abadlıq işləri aparılmış, gülkarlıq salınmışdır.

## Ordubad şəhər 3 nömrəli tam orta məktəbi üçün yeni bina inşa olunacaqdır

Muxtar respublikada təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər “Muxtariyyət ili” olan 2014-cü ildə də davam etdirilir. Bu il Ordubad şəhər 3 nömrəli tam orta məktəbi üçün yeni bina inşa olunacaqdır.

Martın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəb binasının mövcud vəziyyəti ilə maraqlanmış və tikinti aparılacaq əraziyə baxmışdır.

Məlumat verilmişdir ki, yeni məktəb binası 4 mərtəbədən ibarət olacaqdır. Məktəbdə fənn kabinələri, müasir laboratoriyalar və sinif otaqları yaradılacaq, idman zalı istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri binanın layihəsinə baxmış, tikinti işlərinə başlanılması barədə tapşırıqlar vermişdir.

*Ardı 2-ci səhifədə*

## Ordubad şəhərindəki "Buzxana" memarlıq abidəsində təmir-bərpa işləri aparılacaqdır





Tarixi özündə yaşadan abidələr həm də hər bir xalqın milli kimliyini təsdiq edir. Ona görə də muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin bərpası diqqət mərkəzində saxlanılır, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bu il Ordubad şəhərindəki XIV əsrə aid olan "Buzxana" memarlıq abidəsində də təmir-bərpa işləri aparılacaqdır.

Martın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Buzxana" memarlıq abidəsində həyata keçirilməsi nəzərdə tutulan təmir-bərpa işlərinin layihəsinə baxmışdır.

Bildirilmişdir ki, binanın ümumi hündürlüyü 11 metrdir. Abidənin əsas hissəsi yerin altında yerləşir.

Ali Məclisin Sədri təmir-bərpa işləri zamanı tarixiliyin qorunub saxlanılması barədə tapşırıqlar vermişdir.

* * *

Həmin gün Ali Məclisin Sədri Ordubad şəhərinin mərkəzindən keçən Dübəndi çayında aparılan sahilbərkitmə işləri ilə də tanış olmuşdur.

Bildirilmişdir ki, çay yatağının yuyulması nəticəsində ərazidə sürüşmə təhlükəsi yaranmışdır. Ona görə də hazırda burada sahilbərkitmə işləri görülür, suyun axımını nizamlayan beton konstruksiyalar quraşdırılır.

## Aşağı Əylis kəndində kompleks quruculuq işləri görüləcəkdir

Bu il muxtar respublikamızın kompleks abadlaşan kəndləri sırasına Ordubad rayonunun Aşağı Əylis kəndi də qoşulacaqdır.

Martın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Aşağı Əylis kəndinə gəlmiş, kənd tam orta məktəbinin yeni binasının layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət məktəb binası müasir tələblər səviyyəsində tikiləcək, sinif otaqlarında, fənn kabinələrində, idman zalı və kitabxanada lazımi şərait yaradılacaqdır. Həmçinin məktəb müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin ediləcək, şagirdlərin istifadəsinə kompüter və elektron lövhəli siniflər veriləcəkdir.

Aşağı Əylis kəndində həyata keçiriləcək quruculuq işləri çərçivəsində yeni kənd mərkəzi də inşa olunacaq, kənddaxili yollar təmir ediləcək, elektrik və rabitə xətləri yenilənəcəkdir.

Obyektlərin layihəsinə baxan Ali Məclisin Sədri inşaat işlərinə başlanılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Dövlət qulluğunda çalışmaq dövlətə və xalqa xidmətdir



***Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuş, qanunvericilik bazası yaradılmış, kadr siyasətinin əsas prinsipləri və dövlət qulluqçularının cəmiyyətdəki yeri müəyyənləşdirilmişdir.***

Naxçıvan Muxtar Respublikasında çevik dövlət idarəçilik sisteminin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 2008-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılaraq fəaliyyəti təmin edilmişdir. Muxtar respublikada dövlət qurumlarının və bu qurumlarda çalışan dövlət qulluqçularının fəaliyyətlərinin normativ-hüquqi aktlara uyğunlaşdırılması, görülən işlərin nəticəsinin qiymətləndirilməsi, dövlət qulluğuna qəbulun şəffaflıq və müsabiqə əsasında aparılması komissiyanın əsas fəaliyyət istiqamətidir.

Bu gün muxtar respublikada vakant dövlət qulluğu vəzifələrinin tutulması müsabiqə əsasında həyata keçirilir. Müsabiqədə qalib gələn namizədlər ixtisaslarına uyğun olaraq müvafiq dövlət orqanlarındakı vakant vəzifələrə təyin olunurlar. "Heydər Əliyev ili" olan 2013-cü ildə də bu iş diqqət mərkəzində saxlanılmış, nazirlik, komitə və agentliklərdə vakant dövlət qulluğu vəzifələrinə işə qəbulla bağlı müsabiqələr keçirilmişdir. 2012-ci il avqustun 18-də Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan olunmuş müsabiqənin müsahibə mərhələsi 2013-cü il fevralın 7-11-də keçirilmiş və 63 namizəd müsabiqədən keçərək dövlət orqanlarında işlə təmin olunmuş, 7 nəfər ehtiyat kadr bazasına alınmışdır. Dövlət orqanlarında vakant inzibati vəzifələrin tutulması üçün növbəti müsabiqə aprelin 2-də elan olunmuş və mayın 2-dək 306 vakant yer üzrə 299 sənəd təqdim edilmişdir. Müsabiqə nəticələrinə əsasən, test imtahanları və müsahibə mərhələsindən müvəffəqiyyətlə keçən 42 namizədin sənədləri dövlət orqanlarına təqdim olunmuşdur. Onlardan 39-u vəzifəyə təyin olunmuş, 2 namizədin sənədləri aid orqanlar tərəfindən geri qaytarıldığından həmin namizədlər komissiyanın ehtiyat kadr siyahısına alınmışlar. Dövlət orqanlarında vakant inzibati vəzifələrin tutulması üçün növbəti müsabiqə sentyabrın 2-də elan olunmuşdur. Bu müsabiqəyə 40 dövlət orqanı üzrə 341 vakant vəzifə çıxarılmışdır. Müsabiqəyə 29 dövlət orqanı üzrə 290 nəfər sənəd təqdim etmiş və onlardan 36-sı imtahanın hər iki mərhələsini müvəffəqiyyətlə keçmişdir. Müsabiqədən keçən namizədlərdən 34-ü müvafiq dövlət orqanlarında işə qəbul olunmuş, 2 namizəd isə ehtiyat kadr bazasına alınmışdır.

2013-cü il ərzində ehtiyat kadrlar siyahısında olan namizədlərdən 3-ü vakant vəzifələrə təyin olunmuşdur. Digər 3-nün də sənədləri ixtisaslarına uyğun olaraq, vakant inzibati vəzifələrə təyin olunmaq üçün müvafiq dövlət orqanlarına göndərilmişdir.

Komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid edilən orqanlarda müvafiq vakant vəzifələrin tutulması istiqamətində də müsabiqələr keçirilir. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin müraciəti əsasında 24-25 iyun tarixlərində daxili işlər orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilmişdir. İmtahanda 78 nəfər iştirak etmiş, onlardan 13-ü 65 və daha çox bal toplamışdır. Dekabrın 4-də isə Naxçıvan Muxtar Respublikasının vergi orqanlarında mövcud olan vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilmişdir. İmtahanda 22 nəfər iştirak etmiş, onlardan 8-i müsabiqədən keçmişdir.

Dövlət qulluğunda çalışmaq həm də cəmiyyətdə gedən proseslərin idarə olunması və cəmiyyətin inkişafı üçün məsuliyyət daşımaq deməkdir. Hər bir dövlət qulluqçusundan çalışdığı sahəni dərindən bilməklə yanaşı, dövlətinə və xalqına son dərəcə sədaqətli olmaq, vətəndaşların problemlərini və qayğılarını öyrənmək, onların həlli yollarını axtarıb tapmaq tələb olunur. Dövlət qulluqçusu idarəetmə və digər funksiyalarını icra edərkən, ilk növbədə, dövlətin və cəmiyyətin mənafeyini əsas götürməli, ona tapşırılan hər bir vəzifəni böyük məsuliyyət və ləyaqətlə yerinə yetirməlidir. Ona görə də komissiya tərəfindən dövlət orqanlarında xidmət keçən dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi və qanunvericiliyin tələblərinə riayət etmələri diqqət mərkəzində saxlanılır. Ötən il dövlət orqanları üzrə 391 dövlət qulluqçusuna yeni ixtisas dərəcəsi verilmiş, 20 dövlət qulluqçusu isə intizam tənbehi almışdır.

Muxtar respublikada çalışan dövlət qulluqçularının reyestrinin aparılması da komissiya tərəfindən diqqət mərkəzində saxlanılır. Reyestrin aparılması dövlət qulluqçuları haqqında elektron məlumat bazasının yaradılmasına, onlar haqqında məlumatların tez bir zamanda əldə olunmasına xidmət edir. 2013-cü ildə də dövlət qulluqçularının reyestrinin aparılması işi davam etdirilmiş, daxil olmuş yeni məlumatlar elektron bazaya yerləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 iyul 2011-ci il tarixli Fərmanına uyğun olaraq, dövlət orqanlarının fəaliyyətində çevik idarəetmənin, şəffaflığın təmin olunması, informasiya-kommunikasiya texnologiyalarının dövlət hakimiyyəti orqanlarında geniş tətbiqi, yeni internet saytlarının yaradılması və elektron xidmətlərin göstərilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya 26 elektron müraciət daxil olmuşdur. Daxil olmuş bütün müraciətlər vaxtında cavablandırılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elektron xidmətlərin göstərilməsi, obyektivliyin və şəffaflığın artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə namizədlərin qeydiyyatı, imtahan prosesinin tamamilə elektron formaya keçirilməsi və təhlükəsizliyinin təmin edilməsi, imtahan nəticələrinin elektron formada arxivləşdirilməsi, eləcə də dövlət qulluqçularının reyestrinin elektron bazasının təkmilləşdirilməsi üçün texniki tələblər hazırlanmışdır. Hazırda dövlət qulluqçularının reyestrinin formalaşdırılması, attestasiyasının və hüquq-mühafizə orqanlarına işə qəbulla bağlı test imtahanlarının keçirilməsi üçün sistemin təkmilləşdirilməsi üzrə işlər davam etdirilməkdədir.

Xalqa və dövlətçiliyə sədaqətlə xidmət etmək, milli maraqları uca tutmaq, vətəndaşların müraciətlərinə diqqətlə yanaşmaq dövlət qulluqçusunun əsas vəzifəsidir. Ona görə də muxtar respublikanın müvafiq dövlət orqanlarında çalışan hər bir dövlət qulluqçusu daim öz üzərində işləməli, bu sahənin qanunvericilik bazasını dərindən öyrənməli, səylə çalışaraq ölkəmizin inkişaf və tərəqqisinə öz töhfəsini verməlidir.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir



***Dünən Naxçıvan şəhərindəki Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən tədbiri Şahmat Mərkəzinin direktoru Emin Hacıyev açmışdır.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov çıxış edərək bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət idman və gənclər siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev intellektual idman növü kimi şahmatın inkişafına xüsusi diqqət yetirir. Dövlət başçısı tərəfindən 2009-cu il mayın 5-də "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi haqqında Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizdə şahmatın inkişafına böyük təkan vermişdir. Muxtar respublikamızda da ulu öndər Heydər Əliyevin dövlətçilik ənənələrinin hər bir sahədə uğurla davam etdirilməsi ilə bərabər, əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın rolunun artırılmasına xüsusi diqqət və qayğı göstərilir. İnsanları fiziki cəhətdən sağlamlaşdıran idman növləri ilə bərabər, əqli inkişafa, analitik düşüncə tərzini formalaşdırmağa, yaradıcılıq qabiliyyətinə müsbət təsir göstərən şahmatın və onun infrastrukturunun inkişaf etdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq səviyyəli şahmatçıların, məşqçilərin, hakimlərin hazırlanması diqqətdən kənarda qalmamışdır. Təkcə 2000-2013-cü illərdə Naxçıvan şəhərində Şahmat Mərkəzi, Şərur, Culfa, Ordubad, Şahbuz, Babək, Sədərək rayonlarında şahmat məktəbləri üçün yeni binalar tikilərək istifadəyə verilmişdir. Bu binalarda fəaliyyət göstərən şahmat məktəblərinin hər biri sürətli internetlə, ən müasir avadanlıq və informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilmiş, ümumtəhsil məktəblərində şahmat dərslərinin tədrisinə başlanılmışdır. Şahmat infrastrukturunun müasirləşdirilməsi ilə yanaşı, muxtar respublikamızda yeni şahmatçılar nəslinin yetişdirilməsi üçün Bakı şəhərindən tanınmış şahmatçılar muxtar respublikamıza dəvət olunmuş, tərtib edilmiş xüsusi proqramlar əsasında məşqçi-müəllimlərə dərslərin keçilməsi təmin edilmişdir. Hazırda bu sahədə işlər davam etdirilir.

Qeyd olunmuşdur ki, son illər Naxçıvanda 40-dan çox muxtar respublika səviyyəli turnir və birincilik, eləcə də 6 beynəlxalq səviyyəli turnir keçirilmişdir. Şahmatçılarımız 38 dəfə respublika və beynəlxalq əhəmiyyətli yarışlarda iştirak etmişlər. 20 dəfə beynəlxalq yarışlarda iştirak etmiş 72 şahmatçımızdan 10-u mükafata layiq görülmüş, Avropa çempionatında 1 qızıl, 1 bürünc medal, Avropa kubokunda isə 2 mükafata layiq yer qazanılmışdır.

Muxtar respublikamızda 3 dəfə keçirilən "Naxçıvan-Open" Beynəlxalq Şahmat Festivalında, ümumilikdə, 197 şahmatçımız iştirak etmiş, 29 şahmatçımız mükafat qazanmışdır. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasında 27 beynəlxalq reytinqi olan şahmatçı, 1 nəfər beynəlxalq usta, 1 nəfər FİDE ustası, 1 nəfər Avropa çempionu, 2 nəfər Azərbaycan Respublikasının Şahmat Olimpiadasının qalibi, 2 nəfər respublika dərəcəli hakim vardır.

Federasiya tərəfindən 250 cüt birinci və ikinci hissə Azərbaycan dilində "Şahmat" kitabı, 230 cüt birinci və ikinci hissə şahmat CD-ləri, 6 min tirajla çap edilməsi nəzərdə tutulmuş 6 cildlik "Şahmat" kitabının 3 cildi nəşr etdirilərək orta məktəblərə, 50 ədəd tərcümə olunmuş kitab və müxtəlif CD-lər Naxçıvan Şahmat Mərkəzinə və rayon şahmat məktəblərinə verilmişdir.

Bildirilmişdir ki, şahmat məktəblərində, orta məktəblərdə və ali təhsil ocaqlarında şahmat dərslərinin tədrisinin keyfiyyətini artırmaq məqsədilə şahmat fənnini tədris etmək istəyənlər üçün 2013-cü ilin 12-21 oktyabr tarixlərində muxtar respublikanın şəhər və rayonlarında test imtahanları keçirilmişdir. Test imtahanlarında iştirak etmiş 1100 nəfərdən 301 nəfəri test imtahanlarından müvəffəqiyyətlə keçərək onlara Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sertifikatı verilmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev çıxış edərək bildirmişdir ki, qədim idman ənənələrinə malik ölkəmizdə idmanın müxtəlif növlərinin inkişaf etdirilməsi dövlətin gənclər və idman siyasətində önəmli yer tutur. Bütün sahələrdə quruculuq və inkişafın geniş vüsət aldığı muxtar respublikamızda da dövrün tələbinə uyğun həyata keçirilən düşünülmüş, məqsədyönlü siyasət nəticəsində təhsilin, eləcə də idmanın inkişafı daim diqqətdə saxlanılır. Qeyd edilmişdir ki, əqlin gimnastikası sayılan şahmatın muxtar respublikamızda inkişaf etdirilməsi olduqca əhəmiyyətli hadisədir. Bu sahədə tədrisin yüksək səviyyədə təşkilini təmin etmək üçün 325 ədəd elektron tədris vəsaitləri ümumtəhsil məktəblərinə verilmişdir. Eyni zamanda muxtar respublikada şahmatın kütləviliyinin təmin edilməsi və ümumtəhsil məktəblərində şahmatın yüksək səviyyədə tədrisinə nail olunması məqsədilə muxtar respublika rəhbərinin tapşırıqları əsasında ümumtəhsil məktəblərinə 489 ədəd ayaqlı, 500 ədəd asma və 3905 ədəd stolüstü şahmat dəstləri paylanılmışdır.

Tədbirdə Şahmat Mərkəzinin məşqçi-müəllimi, FİDE ustası Urfan Sevdimalıyevin və beynəlxalq usta Fikrət Sideifzadənin də çıxışları olmuşdur.

Sonda muxtar respublikanın ümumtəhsil məktəblərində şahmatı tədris edən 93 müəllimə kompüter və şahmat haqqında kitablar hədiyyə olunmuş, eyni zamanda Şahmat Mərkəzinə və rayon Uşaq-Gənclər Şahmat məktəblərinə 19 ədəd kompüter dəsti verilmişdir.

✍ **Səbuhi HƏSƏNOV**

*Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunda Naxçıvan Muxtar Respublikasının (MR) 90 illiyinə həsr olunmuş elmi konfrans keçirilmişdir.*

## Elmi konfransda Naxçıvan Muxtar Respublikasının 90 ildə keçdiyi tarixi inkişaf yolu təhlil olunmuşdur



İnstitutdan AzərTAc-a bildirmişlər ki, tədbiri bu elm müəssisəsinin direktoru, akademik İsa Həbibbəyli açaraq Naxçıvan MR-in keçdiyi tarixi inkişaf yolundan ətraflı söhbət açmışdır. Akademik ümummilli lider Heydər Əliyevin Naxçıvanda tarixi fəaliyyətini xüsusilə qeyd etmiş, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin 2014-cü il 14 yanvar tarixli Sərəncamının böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Akademik İsa Həbibbəyli ölkəmizin digər regionları ilə yanaşı, Naxçıvana da dövlət tərəfindən xüsusi qayğı göstərildiyini önə çəkmişdir. Qeyd olunmuşdur ki, şərəfli tarixi yol keçmiş, respublikamızın iqtisadiyyatı ilə yanaşı, elm, təhsil və mədəniyyətinə böyük töhfələr vermiş Naxçıvan ölkəmizin tarixi inkişafında mühüm nailiyyətlər qazanmışdır.

Elmi-tədqiqat müəssisəsinin rəhbəri muxtar respublikanın tarixi, mədəniyyəti, iqtisadiyyatı, qədim diyarın elm və mədəniyyət xadimləri haqqında ətraflı məlumat vermişdir.

Akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, bu gündən Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş yubiley tədbirlərinə başlanıldığını, bu məqsədlə AMEA-da beynəlxalq konfransın keçirilməsinin nəzərdə tutulduğunu, akademiyada silsilə tədbirlərin planlaşdırıldığını qeyd etmişdir.

Bildirilmişdir ki, yubiley münasibətilə akademiya çərçivəsində keçiriləcək mərasimdə AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən sərgi təşkil ediləcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvanın müasir tarixi mərhələlərini əks etdirəcək üçcildliyin artıq birinci nəşrinin işıq üzü gördüyünü diqqətə çatdıran İsa Həbibbəyli yaxın müddətdə akademiyada bu qədim diyara aid biblioqrafik göstərici və məqalələr toplusunun nəşr ediləcəyini, bununla bağlı AMEA-nın rəhbərliyi tərəfindən qərar qəbul edildiyini vurğulamışdır.

Konfransda memarlıq üzrə fəlsəfə doktoru Rizvan Qarabağlının "Azərbaycan memarlığının Naxçıvan məktəbi", filologiya elmləri doktoru Tahirə Məmmədin "Naxçıvan ədəbi mühiti: tarixi ənənələr və müasir dövr", AMEA-nın Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Muxtar İmanovun "Naxçıvan folklor mühitinin regional özünəməxsusluğu" mövzularında məruzələri dinlənilmişdir. Məruzələrdə Azərbaycanın bu qədim diyarının özünəməxsus xüsusiyyətləri, ayrı-ayrı tarixi-mədəniyyət abidələrinin yaradıcıları, həmçinin diyarın ədəbi mühitinin tarixi qaynaqları, ədəbi məktəbləri, görkəmli simaları, eləcə də coğrafi məkanın lokal şifahi xalq yaradıcılığı nümunələri misallarla təhlil edilərək iştirakçıların diqqətinə çatdırılmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyi rəhbərinin müavini, filologiya üzrə fəlsəfə doktoru Bəxtiyar Əsgərov çıxış edərək muxtar respublikada son illərdə aparılmış tikinti-quruculuq işlərindən, qazanılmış nailiyyətlərdən, elmi-mədəni, sosial-iqtisadi durumdan, muxtar respublikanın müdafiə qüdrətindən geniş bəhs etmiş, elmi konfransın təşkilinə görə akademiyanın rəhbərliyinə minnətdarlığını bildirmişdir.

*12 mart Daxili Qoşunlar Günüdür*

## Daxili Qoşunların Naxçıvan Alayı müasir hərbi hissəyə çevrilmişdir

***1991-ci ilin dekabr ayında keçmiş SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən 5-ci diviziyası buraxılmış və şəxsi heyəti 2500 nəfərdən ibarət olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilmişdir. 1992-ci il martın 12-də Daxili Qoşunların şəxsi heyəti ərazi bütövlüyümüzün qorunması uğrunda mübarizəyə qoşulmuş, igidlik və qəhrəmanlıq nümunəsi göstərmişdir.***

Ümummilli liderimiz Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə hər il mart ayının 12-si "Azərbaycan Respublikasının Daxili Qoşunları Günü" kimi qeyd olunur.

Azərbaycanda Daxili Qoşunların formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin diqqət və qayğısı ilə Daxili Qoşunlar böyük bir inkişaf yolu keçmiş, hərbi hissələrin müasir standartlar səviyyəsində qurulması istiqamətində tədbirlər görülmüş, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılmışdır. 1994-cü il fevralın 8-də qəbul edilmiş "Daxili Qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu Daxili Qoşunların əsas funksiyalarını, vəzifələrini, fəaliyyət prinsiplərini müəyyən etmişdir. Daxili Qoşunları xalqın və dövlətin layiqli müdafiəçisinə çevirməyin vacibliyindən danışan ulu öndərimiz demişdir: ***"Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu vardır. Bizim Silahlı Qüvvələrimizdə, eyni zamanda Daxili Qoşunlarda Azərbaycanın dövlətçiliyinə, dövlətinə, Azərbaycanın Ali Baş Komandanına yüksək sədaqət ruhu formalaşıb".***

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin də diqqət və qayğısı ilə Daxili Qoşunların təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir, bu sahənin maddi-texniki bazası gücləndirilir.

1995-ci il aprel ayının 10-da Daxili Qoşunların Naxçıvandakı "N" hərbi hissəsi, 2002-ci il dekabr ayının 4-də isə hərbi hissənin bazasında Daxili Qoşunların Naxçıvan Alayı yaradılmışdır. Yarandığı dövrdən etibarən alay ictimai asayişin qorunması sahəsində qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmiş, zəngin xidməti təcrübə toplayaraq hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsində mühüm nailiyyətlər qazanmışdır.

Bu gün Daxili Qoşunların Naxçıvan Alayı müasir maddi-texniki bazası, yüksək döyüş qabiliyyəti ilə seçilir. Alaya göstərilən diqqət və qayğı, burada həyata keçirilən quruculuq işləri nəticəsində hərbi hissə abad və yaraşıqlı bir şəhərciyə çevrilmişdir. Son illər alayın ərazisində müasir standartlara uyğun yaşayış binaları, yeməkxana, anbarlar, müasirtipli qazanxanalar və digər sosial məişət obyektləri inşa edilmişdir. Zabit-gizir ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə ötən il 5 mərtəbəli 60 mənzildən və 3 mərtəbəli 12 mənzildən ibarət xidməti yaşayış binaları istifadəyə verilmişdir. Hazırda 5 mərtəbəli 45 mənzildən ibarət yaşayış binasının tikintisi davam etdirilir.

Bu gün alayın müasir döyüş texnikaları ilə təmin olunması da diqqət mərkəzində saxlanılır. Ötən dövr ərzində Daxili Qoşunların Naxçıvan Alayına 3 ədəd 128 millimetrlik RAK-12 reaktiv artilleriya qurğuları verilmişdir. Düşmənin canlı qüvvəsini, zirehli texnikasını və mühəndis-istehkam qurğularını məhv etmək üçün təyin edilmiş bu müasir artilleriya qurğuları 8500 metr məsafədə yerləşən hədəfləri məhv etmək gücündədir.

Ötən müddət ərzində şəxsi heyətə öz xidməti vəzifələrini yerinə yetirməsi üçün lazımi şərait yaradılmış, onların geyimi, qidalanması diqqət mərkəzində saxlanılmışdır. Hazırda döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədə olan hərbi hissə qarşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirmək gücündədir. 2013-cü ildə keçirilən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən birləşmə və hissələrinin birgə təlimində Daxili Qoşunların Naxçıvan Alayı öz fəallığı ilə seçilmişdir. Alay xidməti döyüş fəaliyyətində, hərbi intizamın möhkəmləndirilməsində yüksək nəticələrə nail olmuş, 2012-2013-cü tədris ilinin yekunlarına görə isə qabaqcıl yerlər tutaraq mükafat və fəxri fərmanlara layiq görülmüşdür.

Daxili Qoşunların Naxçıvan Alayının zabitlərinin əməyi də dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, hərbi hissənin 12 hərbi qulluqçusu Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Daxili Qoşunların Naxçıvan Alayı qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Daxili Qoşunların Naxçıvan Alayında xidmət keçən zabit və gizirlər göstərilən dövlət qayğısına öz xidməti vəzifələrini layiqincə yerinə yetirməklə cavab verməlidirlər. Daxili Qoşunlar ölkəmizdə, eləcə də muxtar respublikamızda daxili intizam tədbirlərini yerinə yetirməklə yanaşı, lazım gələrsə, ərazi bütövlüyümüzün qorunmasında da yaxından iştirak etməlidirlər. Bunun üçün hərtərəfli şərait yaradılmış, hərbi hissələr lazımi avadanlıqlar, silah-sursat və döyüş texnikaları ilə təmin edilmişdir. Hər bir əsgər və zabit öz vəzifə borclarını dərindən bilməli, silah və texnikalardan istifadə imkanlarını yaxşı mənimsəməlidirlər".***

*İnanırıq ki, Daxili Qoşunların Naxçıvan Alayı bundan sonra da qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcək, şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, eləcə də vətəndaşların hüquq və azadlıqlarını qoruyacaqdır.*

**"Şərq qapısı"**

*Çempionluq yolunda əmin addımlarla irəliləyən “Araz-Naxçıvan” futbol komandası uğurlu çıxışına daha birini əlavə edib. 20-ci turun qarşılaşmasında muxtar respublika təmsilçisinin qonağı Gəncənin “Kəpəz” klubu olub. Adına və qazandığı titullara görə Azərbaycanın sayılıb-seçilən 3 klubundan biri olan qərb təmsilçisi Naxçıvan klubu qarşısında tab gətirə bilməyib.*

# “Araz-Naxçıvan” liderliyini davam etdirir



Əslində, Gəncə təmsilçisinin cari mövsümdən I divizionda çıxış etməsi və nisbətən zəif təsir bağışlaması çoxlarını təəssüfləndirib. Hələ ilk dövrədə “Araz-Naxçıvan”ın ən çətin səfər matçı kimi “Kəpəz”lə qarşılaşma göstərilirdi. Çünki bu komanda xüsusilə doğma azarkeşləri önündə istənilən rəqibə qalib gəlmək gücünə malikdir. Lakin həmin görüşdə qırmızı-ağlar mükəmməl oyun sərgiləyərək 3 xal qazanmağa müvəffəq olmuşdular.

Bu görüşə gəlincə, “Araz-Naxçıvan”ın baş məşqçisi Əsgər Abdullayev daim əsas heyətdə yer verdiyi Bəxtiyar Soltanovu ehtiyatda saxlayaraq İrfan Hüseynov və Fərid Quliyevi “döyüşə atmışdı”. Eşqin Quliyevin “dirijorluq etdiyi” görüşdə yarımmüdafiə xətti Əziz Hüseynov və Elgiz Kərimli ilə möhkəmlənmişdi. Milli komandamızın heyətindən qayıdan Emil Balayev isə qapıda öz yerini tutmuşdu.

Rəqibə gəlincə, elə oyun günü Naxçıvana təşrif buyuran Gəncə klubu uğursuzluğa son qoymaq üçün bu matça ciddi hazırlaşmışdı. Baş məşqçi Vidadi Rzayevin komandası liderə qarşı oynayacağını yaxşı bilirdi və bütün imkanlardan istifadə edib Naxçıvandan bir xalla qayıtmağı güman edirdi. Lakin “Araz-Naxçıvan” buna imkan vermədi.

Üç mindən çox azarkeşin seyr etdiyi görüş “Araz-Naxçıvan”ın diqtəsi ilə başladı. İlk dəqiqələrdən hücuma atılan muxtar respublika təmilçisi elə 5-ci dəqiqədə hesabı aça bilərdi. Sağ cinahdan ideal ötürmə alan Elmin Çobanovun cərimə meydançasına sürətli reydi rəqib müdafiəçiləri çaşbaş saldı. Ancaq onun qüvvətli zərbə ilə vurduğu top qapı tirindən qayıdaraq “Kəpəz”ə rahat nəfəs aldırdı. Demək olar ki, ilk hissə komandamızın tam üstünlüyü şəraitində keçdi. 45 dəqiqə ərzində komandamız 4-5 dəfə rəqibi mərkəzə dəvət edə bilərdi. Belə ki, Ruslan Abıyevin baş zərbəsini qapıçı son anda dəf etdi; Mikayıl Rəhimovun künc zərbəsindən sonra başla oyunu dəqiq alınmadı. Bu azmış kimi Fərid Quliyev 38-ci dəqiqədə mükəmməl reydi və zərbəsi yenə qapıçının üzərinə tuş gəldi.

İlk hissədə hesabın açılmadığını görən və yaranan imkanların boşa getməsinə göz yuma bilməyən baş məşqçi Əsgər Abdullayev dəyişikliyə əl atdı. Eşqin Quliyevi Tərlan Xəlilovla, Əziz Hüseynovu isə Elgün Abbaslı ilə əvəzləyən baş məşqçi hücum gücünü bir qədər artırdı. Ardıcıl hücumlar və rəqib qapısına doğru vurulan zərbələr qeyri-dəqiq alınınca hesab dəyişməz olaraq qalırdı. Nəhayət, Naxçıvan təmsilçisi istəyinə matçın 73-cü dəqiqəsində çatdı. Belə ki, epizodların birində futbolçumuza qarşı edilən kobudluq baş hakim Rəşad Əhmədovun diqqətindən qaçmadı. Cərimə zərbəsi təyin edən referinin bu qərarından muxtar respublika komandası maksimum istifadə etdi. Tərlan Xəlilovun asmasından sonra cərimə meydançasında qarışıqlıqdan istifadə edən Mikayıl Rəhimov tablodakı hesabı dəyişməyə müvəffəq oldu. Onun başla oyunu rəqib qapıçını məyus etməklə yanaşı, həm də qırmızı-ağlar üçün vacib qələbəni təmin etdi. Bundan sonra komandamız yenə də “Kəpəz”in qapısı önündə lövbər saldı. Beləliklə, komandamız növbəti oyununu da qələbə ilə başa vurdu.

Bu qələbədən sonra aktivinə daha 3 xal yazdıran “Araz-Naxçıvan” 55 xalla liderliyini davam etdirir. Komandamız çempionatda növbəti oyununu səfərdə “Şuşa” futbol komandasına qarşı keçirəcək. Martın 16-da baş tutacaq görüşün keçiriləcəyi yer Bakı şəhərindəki “Şəfa” stadionudur.

# “Araz-Naxçıvan” tarix yaza biləcəkmi?

*Bu gün futbol üzrə Azərbaycan Kubokunun 1/4 final mərhələsinin ilk görüşləri keçiriləcək. Tarixində ilk dəfə kubok uğrunda yarışın bu mərhələsinə adlayan “Araz-Naxçıvan” futbol komandası doğma arenada Premyer-Liqa təmsilçisi “Xəzər Lənkəran”ı qəbul edəcək.*




İlk olaraq rəqib barədə. Lənkəran təmsilçisi 10 ildir, Azərbaycan futbolunda öz dəst-xətti ilə seçilən komanda kimi formalaşıb. Futbolumuz tarixində ən bahalı, həmçinin ən tanınmış futbolçuları da elə ağ-yaşıllar transfer edib. Hazırda Premyer-Liqada mübarizə aparan “Xəzər Lənkəran” 31 xalla turnir cədvəlinin 7-ci pilləsində qərarlaşıb. Cari mövsümdə Lənkəran baş məşqçi dəyişikliyi edib. Belə ki, mövsümə Con Benjamin Toşakla başlayan lənkəranlılar sonradan uğursuz çıxışa görə uelsli mütəxəssisi istefaya göndərdilər. Əvəzində isə bir vaxtlar Türkiyənin “Fənərbaxça”, “Qalatasaray”, “Beşiktaş” kimi tanınmış futbol komandalarının “sükanı arxasında” əyləşən, həmçinin Türkiyə millisini çalışdıran Mustafa Dənizli Lənkəran futbol komandasına baş məşqçi təyin edildi.

Artıq 3 gündür ki, “Xəzər Lənkəran” Naxçıvana gəlib və komanda iki dəfə oyunun keçiriləcəyi arenada məşqə çıxıb.

“Araz-Naxçıvan” isə I divizionda liderliyinin təsadüfi olmadığını Lənkəran klubu qarşısında sübut etməyə çalışacaq. Artıq komanda bütün məşq proseslərini tamamlayıb və oyunun başlama saatını gözləyir.

Zədəli futbolçuların olmaması baş məşqçi Əsgər Abdullayevin üzünü güldürür. Bu görüşdə hər hansı bir uğurlu nəticə komandamızı növbəti mərhələyə daşıya bilər. Düzdür, qarşıda Lənkəran səfəri də var. Ancaq doğma arenada komandamız oyunun taleyini həll etməyə çalışacaq. Etiraf edək ki, bu heç də asan olmayacaq. Əgər tarixi qələbə qazanılarsa və “Araz-Naxçıvan” yarımfinala yüksələrsə, o zaman bu, Azərbaycanda ilk olacaq.

Qeyd edək ki, “Araz-Naxçıvan” – “Xəzər Lənkəran” oyunu bu gün saat $15^{00}$-də Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək.

### Fikirlər...

*Əsgər ABDULLAYEV (“Araz-Naxçıvan”ın baş məşqçisi):* “Rəqib öz oyunu, öz oyunçu seçimi ilə fərqlənir. “Xəzər Lənkəran” 10 ilin komandasıdır, öz sözünü demiş bir rəqibdir. Komanda Premyer-Liqada istədiyi kimi çıxış edə bilməsə də, gücü kifayət qədərdir. Belə oyunlarda futbolçular daha yaxşı motivasiya olunurlar. Hər bir futbolçu özünü təsdiq etmək üçün çalışır. Hesab edirəm ki, oyunçularımız azarkeşlər qarşısında özlərini göstərmək üçün var qüvvələri ilə çalışacaqlar”.

*Bəxtiyar SOLTANOV (“Araz-Naxçıvan”ın futbolçusu):* “Bu görüş böyük əhəmiyyət kəsb edir. Çalışıb qalib gələcəyik və azarkeşlərimiz önündə nəyə qadir olduğumuzu sübut edəcəyik. Rəqibi heçə almaq fikrində deyiləm, çünki güclü futbolçulara sahib bir komandadır. Lakin bu, futboldur, yaxşı oynayan meydanı da qələbə ilə tərk edər”.

*Azər MƏMMƏDOV (“Araz-Naxçıvan”ın futbolçusu):* “Xəzər Lənkəran”la oyunda meydanda olmağı çox istəyirəm. Baş məşqçinin verdiyi tapşırıqları yerinə yetirmək üçün əlimdən gələni edəcəyəm. Çalışacağıq ki, onun bizə bəslədiyi ümidi doğruldaq. Görüşün çətin keçəcəyini deyə bilərəm, ancaq meydana qələbə üçün çıxacağıq”.

*Mustafa DƏNİZLİ (“Xəzər Lənkəran”ın baş məşqçisi):* “Biz rəqib haqda məlumat toplayırıq. Azərbaycan Kuboku bizim üçün çox vacibdir. Ən azı finala çıxmaq uğrunda mübarizə aparırıq. Bu, bizə mövsümü yüksək notda bitirməyə kömək edəcək”.

*Tural CƏLİLOV (“Xəzər Lənkəran”ın futbolçusu):* “İki gündür, Naxçıvana gəlmişik. Növbəti mərhələyə vəsiqəni burda əldə etməyə çalışacağıq. Qələbə qazanmaqdan başqa yolumuz yoxdur. Amma bu, futboldur, hər şey baş verə bilər. Komandada hər kəs oyunun önəmini anlayır. Zədəli futbolçularımızın olmasına baxmayaraq, onların yerində oynayacaq futbolçularımız da var”.

**✍ Ceyhun MƏMMƏDOV**

# Milli Teatr Günü qeyd olunub





*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Teatr Günü münasibətilə tədbir keçirilib.*

Tədbirin əvvəlində teatrsevərlərə M.F.Axundzadənin komediyası əsasında hazırlanmış “Lənkəran xanının vəziri” tamaşasından bir parça təqdim olunub.

Sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək Azərbaycan teatrının tarixindən danışıb. Qeyd olunub ki, xalqımızın yaratdığı xalq oyunları, xalq komediyaları, meydan tamaşaları, bayram məzhəkələri teatr sənətimizin ilk nümunələri kimi peşəkar milli teatrımızın yaranmasında mühüm rol oynayıb.

Nazir ümummilli lider Heydər Əliyevin Azərbaycan teatrının inkişafındakı müstəsna xidmətlərindən söhbət açaraq bu gün də teatrlara ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən böyük diqqət və qayğı göstərildiyini vurğulayıb. Bildirilib ki, bu gün teatr binaları yenidən qurulur, təmir edilir, teatr səhnəsində islahatlar həyata keçirilir. Teatrlarımıza diqqət və qayğını muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında da aydın görmək mümkündür.

Çıxışdan sonra yazıçı-dramaturq Əli Əmirlinin “Ağa Məhəmməd şah Qacar” tamaşasından bir parça göstərilib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı, Xalq artisti Kamran Quliyev “Azərbaycan peşəkar teatrının yaranması və inkişafı” mövzusunda çıxış edib. Qeyd olunub ki, Yaxın Şərqdə ilk dəfə olaraq peşəkar teatrın Azərbaycanda yaranması xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında və təbliğində, estetik zövqünün formalaşmasında, maariflənməsində böyük rol oynayıb, mütərəqqi ideyaların yayılmasına, teatrların işıqlı amalların carçısına çevrilməsinə səbəb olub. Ona görə də milli teatrın inkişafına fədakarlıqla xidmət etmiş sənət korifeyləri daim xatırlanır, onların mənəvi irsindən öyrənilir.

Böyük rus yazıçısı və dramaturqu Anton Pavloviç Çexovun “Ayı” və “Təklif” vodevilləri əsasında hazırlanmış “Russayağı evlənmə” tamaşasından bir parçanın nümayişi yaddaqalan olub.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, teatrşünas Ələkbər Qasımov “Naxçıvan teatrının yaranması və inkişafı” mövzusunda çıxış edərək qədim sənət ocağının keçdiyi şərəfli və çətin inkişaf yolundan söhbət açıb. Bildirilib ki, böyük sənətkarlarımızın xidmətləri nəticəsində teatrımız bütöv bir tamaşaçı nəslinin sevilib-seçilən sənət ocağına çevrilib. Sənətşünas-alim bu gün Naxçıvan teatrına göstərilən qayğıdan danışıb, teatrın binasının əsaslı şəkildə yenidən qurulmasının, sənət adamlarının əməyinin qiymətləndirilməsinin bunun bariz ifadəsi olduğunu bildirib.

Sonra görkəmli şair-dramaturq İslam Səfərlinin “Göz həkimi” pyesindən bir parça təqdim olunub.

Teatrın direktor əvəzi, Xalq artisti Rza Xudiyev “Azərbaycan teatrının inkişafında Naxçıvan teatrının rolu” mövzusunda çıxış edərək bu sənət ocağının dərin məzmunlu əsərləri tamaşaya qoymaqla teatr tariximizdə gözəl ənənələr yaratdığını bildirib.

Tədbirin sonunda M.F.Axundzadənin “Hekayəti-xırs quldurbasan” komediyasından bir parça göstərilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin kollektivi agentliyin Baş direktoru Yasin Səfərova, əzizi
**QIZILLI XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi Elxan Məmmədova, nənəsi
**QIZILLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti universitetin tədris işləri üzrə prorektoru İbrahim Kazımbəyliyə, əzizi
**KƏRƏMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yüksəkgərginlikli Elektrik Şəbəkəsinin direktoru Yunis Əliyev və şəbəkənin kollektivi Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərova, əzizi
**QIZILLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Özəl Universitetinin Humanitar elmlər kafedrasının əməkdaşları İbrahim Kazımbəyliyə, əzizi
**KƏRƏMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Şərq qapısı” qəzetinin kollektivi Naxçıvan Mətbuat Şurasının üzvü Elxan Məmmədova, nənəsi
**QIZILLI XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Anar Abuzərli ailəsi ilə birlikdə İbrahim Kazımbəyliyə, əzizi
**KƏRƏMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetindən Zəhmət Şahverdiyev, İlqar Kəngərli, İsmayıl Zeynalov, Ələkbər Cabbarlı, Abdulla Mustafayev və Arzu Abdullayev iş yoldaşları Rəsul Bağırova, əmisi
**XALIQVERDİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Naxçıvan Tikiş” ASC İdarə Heyətinin sədri Rövşən Abdinov və cəmiyyətin üzvləri Naxçıvan Dövlət Universitetinin təsərrüfat işləri üzrə prorektoru Araz Zalova, həyat yoldaşı
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri Yusif Hüseynov və kafedranın əməkdaşları Araz Zalova, əzizi
**TƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Maral və Ruqiyyə Zeynalovalara, əzizləri
**ZEMFİRA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 247**